***SOSİAL PSİXOLOGİYA***
***СОЦИАЛЬНАЯ ПСИХОЛОГИЯ***
***SOCIAL PSYCHOLOGY***

*UOT 159.923:316.6*

# AQRESSİV DAVRANIŞIN PSİXOLOJİ DETERMİNANTLARI

**Çinarə Əsədulla qızı Nuxieva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0002-5091-2836
**E-mail:** cinare.nuhuyeva@gmail.com

***Açar sözlər:*** *aqressiya, aqressiv davranış, davranış pozuntusu, şəxsiyyət keyfiyyətləri, beyin anomaliyaları*

***Ключевые слова:*** *агрессия, агрессивное поведение, расстройства поведения, качества личности, аномалии мозга*

***Key words:*** *aggression, aggressive behavior, behavioral disorder, personality qualities, brain abnormalities*

Bütün tarix boyu bəşəriyyət qəddarlıq, zorakılıq, qəsdlər, dağıntılar və digər destruktiv əməllər, mənəvi iztirablar gətirən hallarla qarşılaşır. Biz, demək olar ki, hər gün kütləvi informasiya vasitələrindən insanların aqressiv davranışının təcəssümü olan cinayətlər, müharibələr, terror aktları haqqında məlumat alırıq.

Kiçik yaşlı məktəblilərlə işlədiyim, daim onlarla ünsiyyətdə olduğum üçün məni uşaq zorakılığı, uşaqlara qarşı törədilən aqressiya və uşaq cinayətləri mövzusu cəlb edirdi.

Mövzuya dair araşdırma apararkən aqressiyanın həyatımızın bir çox sahələrinə nüfuz etdiyinin şahidi oldum, belə ki, ailədaxili zorakılq hallarından tutmuş məktəbdaxili münasibətlərə qədər aqressiv davranış çoxalmış və artmışdır. Uşaqlara və qadınlara qarşı olan zorakılıq halları ilə yanaşı cəmiyyətin kişilərə göstərdiyi basqı, iş yerlərinə seçim zamanı gender bərabərsizliyinin sərgilənməsi, işsizlik kişilərdə autoaqressiyanın artmasına səbəb olmuşdur.

Valideyn tərəfindən fiziki cəzanın dəstəklənməsi Azərbaycan mədəniyyətində ənənəvi bir yer almaqdadır. Uşaqlara qarşı istismar və zorakılıq halları "qızını döyməyən dizini döyər", "ananın vurduğu yerdə gül bitər" kimi ifadələrlə atalar sözü ve deyimlərimizə də yansımışdır. Müəllim-şagird münasibətlərində də bu zorakılıq bir çox hallarda müşahidə olunur və təbii hal kimi qəbul edilirdi. XX əsrin əvvəllərində toplum halında müəllim-şagird münasibətlərinə subyekt-obyekt kimi yanaşaraq şagirdə qarşı edilən zorakılıq hallarını tərbiyə üsulu hesab edən, "əti sənin sümüyü mənim" deyimi kimi tərbiyədə hər cür zorakılığın məqbul olduğu düşüncəsi cəmiyyət tərəfindən müsbət qarşılanırdı.

Lakin son zamanlarda uşaq zorakılığı ailə hüdudlarını aşmış, uşaq cinayətlərinə çevrilmişdir.

Nərmin Quliyeva cinayəti kimi məşhurlaşan Tovuz rayonunun Dondar Quşçu kəndi sakini 2009 təvəllüdlü Nərmin Quliyevanın öldürülməsi hadisəsi aktuallığını uzun müddət itirməmiş,

KİV vasitələrinin əsas müzakirə obyektinə çevrilmişdi. Nərmin Quliyeva 21 noyabr 2019 tarixində qaçırılmış, 45 gün sonra yanvarın 6-da ölü bədəni yandırılmış şəkildə tapılmışdı.

Yaxın xarici ölkə olan Türkiyədə aqressiya obyektinə çevrilmiş insanların, daha doğrusu uşaq və qadın cinayətlərinin artdığı müşahidə edilməkdədir. Türkiyədə uşaqlara yönəlik fiziki istismar önəmli bir mövzu olaraq daim müzakirə edilir. Türkiyədə Narin Güran cinayəti kimi məşhurlaşan hadisə hazırda da öz aktuallığını itirməmişdir.

Psixoloji-pedaqoji ədəbiyyatın təhlili göstərdi ki, bir çox sayda tədqiqatlara baxmayaraq, aqressiv davranışın bəzi əsas məsələləri kölgədə qalır və daha dolğun araşdırma tələb edir. İbtidai məktəbdə aqressiv davranış probleminin aktuallığı, onun bir çox aspektlərinin kifayət qədər bilinməməsi və eyni zamanda bu sahədə elmi əsaslandırılmış tövsiyələrdə kütləvi təcrübəyə ehtiyac olması tədqiqat mövzusunun aktuallığını gündəmə gətirir.

Aqressiyaya təsir edən amillərdən biri də fərdi – psixoloji amillərdir. Fərdi – psixoloji amillərə temperament tipi, xarakter, şəxsiyyətin gender (cins), yaş xüsusiyyətləri və s. daxildir.

Aqressiyanın baş verməsinə səbəb olan şəxsi keyfiyyətlərə aşağıdakıları göstərmək olar:

1. Emosional defisit – başqasının halına acımamaq, dərdinə şərik olmamaq, insanların hisslərinə və tələbatına biganəlik.

2. Aqressiyanın qərəzli nişanələri – özünün neqativ emosional məqsədlərini başqalarına şamil etmək. Bunun nəticəsində ətrafdakıların müsbət və ya neytral hərəkətləri aqressiv cavab reaksiyaları tələb edən düşmənçilik kimi qiymətləndirilir.

3. Patoloji qıcıqlanma – hətta ən xırda təhrikedici amilə qarşı dərhal reaksiya vermək. Belə adamlar tez özündən çıxaraq, yaranmış münaqişəli vəziyyətdə daha aqressiv davranış formaları seçirlər.

4. İnternallıq – istənilən şəraitdə hadisələrin gedişinə təsir edə bilmək inamıdır. Tədqiqatların nəticəsinə görə internal şəxslər aqressiyanı arzuladıqları məqsədə çatmaq üçün vasitə hesab edirlər.

5. Xəcalət hissi – şəxsi "Mən"in neqativ qitmətləndirilməsi nəzərdə tutulur. Qəribə görünsə də, tez-tez xəcalət çəkən insanlar özlərini təhqir olunmuş hiss etdiklərindən, "günahkar" olanlara qarşı hiddət və düşmənçilik hissini büruzə verir [4,39].

Cinsi faktorları da xüsusi qeyd etmək lazımdır. Qadınlarda aqressiv davranış daha çox qəzəbin ekspressiyası (coşması) ilə bağlı olub, münaqişəli vəziyyətin həlli üsulu kimi təzahür edir. Kişilərdə isə aqressiya qarşıya qoyulmuş məqsədə çatmaq üçün alət rolunu oynayır. Eyni zamanda kişilər daha çox aqressiya obyekti qismində çıxış edirlər. Bu çox güman ki, potensial aqressorlar üçün qadınların daha az təhlükə yaratması ilə bağlıdır. Təcrübə göstərir ki, qadınlar daha çox seksual zorakılığın qurbanı olurlar.

Kişi və qadınlar həmçinin aqressiyaya münasibətdə öz yönəlişləri ilə də fərqlənirlər. Kişilər bir qayda olaraq daha az dərəcədə günah və iztirab hissi keçirirlər. Bunun əksinə olaraq qadınlar aqressiyanın onların özlərinə tərəf çevrilməsini daha çox narahatlıqla keçirilər – məsələn: qurban (zərər çəkən şəxs) tərəfindən zərbə alınmasının mümkünlüyü. Yeni məlumatlara görə həm kişilər, həm də qadınlar aqressiya haqqında bir – birinə zidd nümunə (model) və nəzəriyyələri özündə saxlayırlar. Bundan əlavə qadınlar aqressiyaya ekspressiya kimi – aqressiv enerjinin çıxması yolu ilə stressdən azad olma və qəzəbin ifadə olunması üsulu kimi baxırlar. Kişilər isə əksinə aqrerssiyaya müxtəlif sosial və maddi mükafat qazanmaq üçün can atılan davranış modeli hesab edən alət kimi yanaşırlar. Kişilər aqressiyanın birbaşa formalarına əl atmağa daha

çox meylli olurlar, qadınlar isə qarşı tərəfə dolayı yola zərər verməklə vasitəli hərəkətlərdən istifadəni üstün tuturlar. Məsələn, M.V.Alfimova və onun həmkarları [1, 112-123] 8-15 yaş arası oğlan və qızlarla öz siniflərində oxuyan şagirdlərin hirsləndikləri zaman özlərini necə aparmalı haqda sorğu aparılmışdır. Əldə olunan məlumatlarda göstərmişdir ki, qızlardan fərqli olaraq oğlanlar özündə rəqibə qarşı təpik, savaşmaq kimi hərəkətləri birləşdirən aqressiyanın birbaşa formalarına tez-tez əl atırlar. Lakin bunun əksinə olaraq qızlara daha çox aqressiyanın vasitəli formaları xasdır, məsələn, qarşı tərəfə onun arxasınca böhtan atmaq, dostluq münasibətinin kəsilməsi, inciklik nümayiş etdirmək və s. [1, 118].

Hər hansı qeyri–konstruktiv şəxsi keyfiyyətlərə malik olmaq heç də aqressiv davranışı xarakterizə etmir. Aqressiyaya meylli şəxslərdə aqressiyanı cilovlaya bilən və ya əksinə belə xüsusiyyətə malik olmayanlarda aqressiyaya təhrik edən külli miqdarda amillər mövcuddur. Bu nöqteyi nəzərdən, şəxsin həyata baxışı, mənəvi dəyərlər sistemi, sosial əhatə ilə münasibətləri, fərdi və kollektiv özünüdərki mühüm əhəmiyyət kəsb edir.

Aqressivlik həmçinin kişi cinsiyyət hormonu olan testesteronun qandakı tərkibi ilə də korrelyasiya olunur. Bu hormonun təsirinin insandan daha çox ibtidai heyvanlarda güclü surətdə meydana çıxmasına baxmayaraq, zorakılıq meylli kişilərin qanında testesteronun səviyyəsini aşağı salan dərman preparatları onların aqressivliklərinin səviyyəsini də aşağı salır.

Aqressiv davranışın müzakirəsində tez–tez adı hallandırılan digər "təqsirləndirici" kimyəvi maddə olan neyrotransmitter serotoninin aşağı səviyyəsidir ki, onun çatışmazlığı depressiya vəziyyətində olan insanlar üçün də xarakterikdir. Zorakı hərəkətlərə meylli primatlar və müxtəlif yaşlı insanlar üçün qanda serotoninin aşağı səviyyəsi xarakterikdir. Bundan başqa laborator şərtlər daxilində serotoninin toplanmasının xoş olmayan hərəkətləri, aqressiv reaksiyaları artırdığı sübuta yetirilmişdir. Futbol üzrə dünya çempionatının oyunundan sonra qalib gələn oyunçuları dəstəkləyənlərin qanında testesteronun tərkibi artır. Məğlub olanları dəstəkləyənlərin qanında testesteronun tərkibi azalır. Hər hansı tələblərdən sosial–iqtisadi statusu aşağı enən insanlarda qanda seretoninin tərkibi çox olmur. Təkamül psixologiyasının tərəfdarları güman edirlər ki, təbiət bu yolla onları bəlkə də uğur gətirə biləcək riskə getməkdən qorxmamağa "hazırlayır". Aqressiyanın mürəkkəb davranış olmasına baxmayaraq onun beynin müəyyən hissəsini idarə etdiyini demək olmaz. Belə ki, alimlər sinir sisteminin məhz hansı hissələrinin insanın və heyvanın aqressiv davranışını yüngülləşdirdiyini müəyyən etmişlər. Bu zonanın aktivləşməsi ədavətin güclənməsinə, dezoktivləşməsi isə onun zəifləməsinə gətirib çıxarır.

Bu, aqressiyaya meylli insanların beyninin anomaliyalı olması mənası verirmi? Bu suala cavab tapmaq üçün Artur Pean və onun həmkarları [3, 3-18] nə qəddarlıq, nə uşaqlıqda yaranmış, nə pedaqoji baxımsızlıq, nə də zorakılıqla izah oluna bilməyən aqressiv davranışa malik qatillərin beyninin aktivliyini ölçmüşlər və antisosial davranışlara meylli olan kişilərin beynində boz maddənin kəmiyyətini müəyyən etmişlər. Tədqiqatçılar müəyyən etmişlər ki, aqressiv davranışa cavabdeh olan baş beynin bölmələri üçün qəza - tormoz funksiyasını icra edən prefrontal qabıq onlarda qəddar olmayan qatillərə nisbətən 14% daha az aktivdir. Onun (boz maddənin) həcmi antisosial həyat tərzi sürən şəxslərdə orta statistlikli insanlarda olduğundan 15% daha azdır [3,11].

İnsanların aqressivliyi ağrı hissi altında da güclənir. Bizlərdən çoxu müxtəlif ağrılar və

ya miqren zamanı öz davranışımızı xatırlaya bilmirik. L.Berkoviç (11 avqust, 1926, Nyu-York, ABŞ - 3 yanvar, 2016, Madison, Viskonsin, ABŞ) və onun tərəfdarları [2] universitet tələbələri üzərində eksperiment keçirmişlər. Tədqiq olunanlar ya bir əlini isti, ya da soyuq suya salırlar ki, bu da tədricən bərk ağrı verməyə başlayır. Əllərini soyuq suda saxlayanlar daha əsəbi halda olmuş və sonra danışmışlar ki, həmin vaxt onlar eksperimentin digər iştirakçılarına qarşı da söyüşlə hücum etməyə hazır imişlər. Beləliklə, sinir sistemi genetik və bioloji faktorlar fərdin aqressivliyinə əhəmiyyətli dərəcədə təsir göstərir.

**Problemin aktuallığı.** Aqressiya həyatımızın bir çox sahələrinə nüfuz etmiş, ailədaxili zorakılq hallarından tutmuş məktəbdaxili münasibətlərə qədər aqressiv davranış çoxalmış və artmışdır. Aqressiv davranışın psixoterapiyası ilə əlaqədar insanların mütəmadi psixoloqlara müraciət etməsi problemin aktual əhəmiyyət kəsb etdiyinə işarə edir. Bu baxımdan aqressiyanın psixoloji determinantlarının tədqiqi aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Məqalədə aqressiyanın psixoloji determinantları təhlil olunur. Aqressiyanın baş verməsinə səbəb olan, aqressiv davranışı yaradan qeyri – konstruktiv şəxsi keyfiyyətlər təsnif olunur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə problemin həllinin praktik yolları və istiqamətləri göstərilir.

## Ədəbiyyat

1. Алфимова М.В. Трубников В.И. Психогенетика агрессивности// Вопросы психологии: издается с января 1955 года / ред. Е.В. Щедрина. – 2000. – № 6 ноябрь-декабрь 2000. – с. 112-123.

2. Берковиц, Л. (1993). Агрессия: ее причины, последствия и контроль. Нью-Йорк: Макгроу-Хилл.
https://www.livelib.ru/author/175508-leonard-berkovits

3. Реан А.А. Агрессия и агрессивност личности // Вопросы психологии. – 1996. – No 5. с. 3-18.

4. Румянцева Т.Г. Агрессия и контрол // Вопросы психологии – 1992.- № 5/6.- с. 35-40.

**Ч.А. Нухиева**

## Психологические детерминанты агрессивного поведения
## Резюме

Одним из факторов, влияющих на агрессию, являются индивидуально – психологические факторы. К индивидуально-психологическим факторам относятся тип темперамента, характер, половые (половые), возрастные особенности личности и др. включает в себя. Наличие каких – либо неконструктивных личностных качеств вовсе не характеризует агрессивное поведение. Существует огромное количество факторов, способных обуздать агрессию у лиц, склонных к агрессии, или, наоборот, провоцирующих агрессию

у тех, у кого такой характеристики нет. С этой точки зрения немаловажное значение имеют взгляды человека на жизнь, систему нравственных ценностей, взаимоотношения с социальным окружением, индивидуальное и коллективное самосознание.

**Ch.A. Nuxieva**

**Psychological determinants of aggressive behavior**
**Summary**

One of the factors affecting aggression is individual – psychological factors. Individual-psychological factors include the type of temperament, character, gender (gender), age characteristics of the personality, etc. included. Having any non-constructive personal qualities does not at all characterize aggressive behavior. In individuals prone to aggression, there are a huge amount of factors that can curb aggression or, conversely, provoke aggression in those who do not have such a feature. From this point of view, the individual's outlook on life, the system of moral values, relations with social coverage, individual and collective self-awareness are of paramount importance.

**Redaksiyaya daxil olub:** 15.04.2025